**UOT75**

**Fatma Süleymanova**
**Azərbaycan Dövlət Mədəniyyət**
**və İncəsənət Universiteti**
**AZ 1065, Bakı, İnşaatçılar pr. 39**
**E-mail:abbaszade14@mail.ru**

# AZƏRBAYCAN RƏNGKARLIĞINDA XƏZƏR MÖVZUSU

**Xülasə**:Azərbaycan təsviri sənətinin inkişafı ərzində Xəzər bir çox rəssamların ilham mənbəyi olmuş, istər rəngkarlıq, istərsə də qrafika sahəsində bu mövzuya həsr olunmuş bir çox əsərlər meydana gəlmişdir. Müxtəlif rəssamların əsərlərində Xəzər müxtəlif əhval-ruhiyyələrdə işlənmişdir.Xəzər dənizinin obrazlarını yaradan rəssamlar arasında – S.Bəhlulzadənin, T.Salahovun, B.Mirzəzadənin, Nadir Qasımovun, M.Rəhmanzadənin vəbu sıranı zənginləşdirəcək bir çox rəssamın adını qeyd etmək olar. Ümumiyyətlə, Azərbaycan rəngkarlığında az-az rəssam tapılar ki, heç olmasa bir əsərini də Xəzərə həsr etməsin. Bu tablolar onlarla məqaləyə sığışmayacaq saydadır.

**Açar sözlər:** Xəzər, rəngkarlıq, rəssam, rəng, dəniz, neft.

Sənaye mövzusunda aparıcı Azərbaycan rəngkar və qrafikləri dövrün xüsusiyyətlərini – Xəzərin qoynunda ucalan Neft Daşlarının tikintisinin döyünən ritmini, ölkənin gələcəyini quran yeni nəsli əks etdirən əsərlər yaratmağa çalışırdılar.

Sənaye mövzusundan danışarkən dəzgah qrafikası sahəsində qazanılan nailiyyətləri qeyd etmək və ilk növbədə görkəmli qrafika ustası Xalq rəssamı Maral Rəhmanzadənin yaradıcılığını nəzərdən keçirmək lazmdır.

Bakıda doğulub, boya-başa çatan rəssam müasirlərinin xatirələrinə görə Xəzərin vurğunu idi.Məhz, yaradıcılığına sənaye mövzusunun daxil olmasının bir səbəbi ölkəmizdə neft sənayesinin inkişafı, neftçi əməyinin tərənnümü idisə, digər səbəb Xəzərin qoynunda salınmış şəhər və neftin cazibəsi idi.

Neft daşlarında rəssamı təkcə Xəzərin mavi sularının romantik mənzərəsi deyil, küləklə vuruşa-vuruşa dənizin dərin qatlarından neft çıxaran fəhlələr və onların iş prosesi cəlb edirdi. Səfərlər nəticəsində, M.Rəhmanzadənin rəngli litoqrafiyasından ibarət “BizimXəzərdə” silsiləsi yaranır.

Silsiləyə daxil olan “Buruq”, “Fəvvarə” (1940), “Mədəndə”,”Tanker dənizə gedir” və digər rəngli litoqrafiyaların adı rəssamın məramını- “Qara qızıl” məskəni, məbədə çevrilən qaz alovu və digər qiymətli olan unikal Abşeron torpağının sənaye mənzərələrini litoqrafiyalarına köçürür.

Sənaye mənzərəsi mövzulu qrafik işlər sırasında Altay Hacıyevin “Xəzər”(1960) adlı dörd vərəqdən ibarət linoqavüra silsiləsini xüsusilə qeyd etmək lazımdır. Silsilənin birinci vərəqi olan “Xəzərin fatehi” (1960) adlı linoqravüranın arxa fonunda buludlu səmada uçan qağayılar, ön planda formatın çərçivələrinə güclə sığan, qəhrəman cüssəli, qəti addımlarla irəliləyən, üz cizgilərindən iradəlixarakteri aydın sezilir, nisbətən arxa planda isə ancaq siluetləri görünən lakin hərəkətlərindən əmək əzmkarlığı sezilən neftçi obrazlarıverilib.

“Fırtınaya qarşı” (1960-cı illər) linoqravürasında rəssam neftçi əməyinin əzmini və işlərinin nə dərəcədə təhlükəli olmasını fırtınalı küləyə qarşı gedən fəhlələrin obrazında təcəssüm edərək təbiət qüvvələrini ram edilməsini göstərə bilib. Əsərdə gərginlik maksimuma çatdırılıb. Linoqravüradakı insanların hərəkətlərində güclü və iradəli gərginlik hiss olunur. Fırtınalı küləyin müqavimətini yaran fəhlələr təbiətə qarşı yeriyir.

“Xəzərin fəxri” (1960) qravürasının dinamikasını statik, monumental buruqların fonunda, sakit ləpəsiz Xəzər sularında irəliləyən gəminin buxarı təşkil edir.

Dəfələrlə xarici sərgilərdə nümayiş etdirilən “Xəzər” silsiləsi, xüsusilə, “Dənizdən aralı” , “Xəzərin fəthi” əsərləri Altay Hacıyevə Azərbaycan qrafikasına layiqli nümayəndəsi kimi şöhrət gətirmişdi.

Xəzər mövzusuna müraciət edən rəssamlar sırasında Azərbaycanı qarış-qarış gəzən və əsərlərində əbədiləşdirən Səttar Bəhlulzadənin xüsusi yeri var.

Səttar Bəhlulzadə “Xəzər üzərində axşam” (1958), “Xəzər gözəli” (1961), “Mavi əfsanə” (1961) adlı məşhur, geniş panoramlı mənzərələr yaratmışdır. “Xəzər üzərində axşam” mənzərəsi rəssamın geniş şöhrət qazanmış əsərlərindəndir. Mavi, gümüşü dumanlar arasında göy dənizin səthi üzərində yüksələn əfsanəvi estakada və neft buruqları sanki zühur edir. Bu qəribə mənzərə təbiətin sənaye ilə vəhdətini göstərən şairanə nəğmə kimi səslənir.

Rəssam koloristik qammanı sakit mavi tonlarda həll edərək, bütün təsviri zəif dumana qərq edir. Burada hər şey gözəldir- dənizin dərin suları da, sərhədsiz səma da, günəşin və ya ayın şüalarının istiqamətini dəyişən rəng çalarlarına boyanmış buludlar da, göydə uçanquşlar da.

“Xəzər üzərində axşam” əsərində eyni zamanda ön plandakı qağayılar nə qədər zərifdilərsə, arxadakı neft buruqları əksinə, möhtəşəm və miqyaslıdırlar.

Təbii sərvətlərimizin vəsfinə həsr olunmuş bu əsərdə rəssam nə qədər neftçilərin gərgin əməyi sayəsində yeniləşən konkret məkana bədii görkəm versə də,o, bədii ümumiləşdirmələrlə bu birbaşa tanımadan bilərəkdən qaçaraq təsviri təbiətlə sənaye obyektinin obrazı kimi qəbul edilən vəhdətinə çevirmişdir.

Səttar Bəhlulzadə yaradıcılığının əsas xüsusiyyətlərindən biri də mənzərə tablolarında insan obrazlarının olmamasıdır.

Mavi tonda işlənmiş “Xəzər gözəli” əsərində perspektivdə itən neft buruqları təsvir edilib. Mavi rəngin müxtəlif çalarlarında işlənmiş bu tabloda buruqlar səma ilə dənizin qovşağında, sanki ipək pərdə arxasından boylanırlar. Dənizin səthindəki ağ rəng isə sanki göydən qopmuş bulud parçasıdır. Dahi rəssamın buruqları duvaq arxasından boylanan qamətli gözələ bənzətməsi poetik məzmun daşıyır.

Rəssamın 1961-ci ildə yaratdığı “Xəzər gözəli” əsəri bütün yaradıcılığının şah əsərlərindən hesab olunmaqla yanaşı, həm də onun yığcam rənglərlə, akvarelsayağı manerada işlədiyi çoxsaylı əsərlərinin yüksək bədii dəyərə malik olduğunu nümayiş etdirir.

İnamla demək olar ki, bu əsər Azərbaycan rəngkarlığı ilə yanaşı, bütün dünya rəssamlarında bir rəngin ifadə imkanlarının nəhayətsizliyini nümayiş etdirən ən yaxşı əsərlərdən biri, bəlkə də birincisidir.

Səttar palitrasına yaxından bələdçiliyin qarşılığında deyə bilərik ki, çəhrayı və zümrüdü ilə yanaşı, mavi də onun çox sevdiyi, duyğularını etibar etdiyi rənglərdən idi.

Təkcə mavi rənglə böyük ölçülü “Xəzər gözəli” tablosunun duyğulandırıcı bir məkana dönməsi heç şübhəsiz Səttar Bəhlulzadə sənətinin qüdrəti sayəsində baş tutmuşdur.

Əslində isə rəssam duyulası rəng zənginliyini mavi və onun tündləşməklə yanaşı işıqlaşan çoxsaylı çalarlarının çox zərif keçidli vəhdəti sayəsində əldə etmişdir.

Bu mavi “çətir”in duyulası təsirindəndir ki, ön planda sıralanan bəyaz qağayılar və arxada ucalan tünd rəngli neft buruqları da bu rəngin lap sakitliyi yaratmağa xidmət edən ümumi ovqatına tabe kimi baxılır.

Sənaye mənzərəsindən söz açarkən xalq rəssamı Böyükağa Mirzəzadənin yaradıcılığını qeyd etmək lazımdır.

Böyükağa Mirzəzadənin fırçasından çıxan əsərlərdə zəhmətkeş insanın tərənnümü, xüsusilə də neftçilərin həyat tərzi, əməyi onun yaradıcılığında əsas yer tuturdu. Azərbaycan zəhmətkeşlərinin qəhrəmanlıq qüvvəsiylə yaradılmış dənizestakadasını obyekt olaraq seçir. Böyükağa Mirzəzadə dəfələrlə, sahildən 90 kilometr məsafədə olan, açıq dənizdə özünəməxsus adalarda, estakadalarda olur. Özününsəfəri zamanı o etüdlər yazır, hansıların ki, əsasında beş mənzərədən ibarət seriya yaradır.Neft mədənlərində, inşaat meydançasında “Neft çənlərində“ , “Xəzər neftçiləri” kimi kompazisiyalarda rəssam parlaq və nikbin boyalara əl atır, əsərlərinin koloritini dekorativ və işıqlı rənglərin əlaqəsində qurur. O, hadisələrin cərəyan etdiyi mühiti, hava və işıq effektlərini inandırıcı verə bilir, buna görə də tablolarında parlaq günəş nuru bərq vurur, işıq-kölgə təzadları sənaye obyektlərinin həcmliliyini nəzərə çarpdırır.

Rəssamın “Neft daşları”na həsr etdiyi onlarla etüd və rəsmləri bu qeyri-adi sənaye şəhərinin romantik mənzərəsini əks etdirir.

Onun “Estakada” adlı mənzərəsi əslində buruqların, metal adaların, qaldırıcı kranların və s..fonunda təqdim olunmuş dəniz neftçilərinin həyatından götürülən sujetli tablodur.

1953-cü ildə çəkilmiş çoxsaylı mənzərələrdə, “Yeddi gəmi adası” , “Neft daşlarında” biz dumanlı toranlar kimi yumşaq, demək olar ki, həzin gün batan çağını görürük.

Toranlar, sərin sahil küləyi, “Neft çənlərində“ olduğu kimi batmaqda olan günəşin şüalarında yellənən yaşımtıl-göy dalğalar “Estakada” “Yeddi gəmi adasında “ “Rezervuarlarda” və yenə iki mənzərə əsərində neftçilərin qəhrəmanlıq əməyi ilə fəth edilmiş dənizin gözəlliyi, suda bu qədər qeyri-adi qurğuların yaranmasına imkan verən, müasir sənayenin gücü əks etdirilmişdir.

Yeni sənaye motivləri onlarda öz əksini tapmışdır- mavi dəniz açıqlığında neft buruqları, estakada, dirəklər üzərində şəhərcik, neft rezervuarları, nəqliyyat gəmiləri-

bütün bunlar Xəzərin dərinliyindən qara qızıl əldə edən neftçilərin fədakar əməyinin bəhrəsidir.

Mənzərələrin məziyyətlərinin ən başlıcası onların koloristik həllidir.

Rəssam soyuq və isti tonları, parlaq mavinin uyğunlaşmasını, yaşılı-qızılı oxra və qırmızı-qəhvəyi tonlarla kontrast müqayisə etmədə yaradır.

Belə ki, məsələn, “Rezervuarlarda” dənizin parlaq-mavi səthi, çəhrayı-mavi səmanın fonunda ucaldılmış böyük silindirvari baklarda günəş işığının sarı-narıncı böyük işıqlı ləkələrlə təzad təşkil edir. Və ya “Yeddi gəmi” mənzərəsində dənizin isti parıltılıboz səthi, səmanın göy- bənövşəyitonları ilə kölgələnir.

Dəniz mədənlərinin özünəməxsus işi müxtəlif işıqlanmada göstərilmişdir- gündüz “Estakada” , “Yeddi gəmilər adasında“ , toranlı- “Rezervuarlarda”. Bütövlükdə, seriya insanın fəaliyyəti ilə ayrılmaz bağlı olan təbiətin tamamlanmış poetik surətini yaradır. Rəssam, bir sıra illər ərzində yenə də bu mövzuya müraciət edir.

“Növbədə” (1965-ci il) və “Xəzər dənizçiləri” (1971-ci il) kimi əsərlər buna sübutdur. Onlardan axırıncısında dəniz suyu ilə dolmuş estakadanın lövhələri, fəhlə qruppası kətanın boyu bərabəri bütün hündürlüyünə əzəmətliyi üçün pyedestal kimi xidmət edirdi. Sərt küləyin şiddəti onların paltarını yellədir və onların havadan çatlamış üzünə üfürürdü. İkinci planda Xəzərin açıq-firuzeyi suyu və hamar dəniz üzərində uçan qağayılar bütövlükdə qara tonda verilmiş əsərə təzadlıq verirdi.

Azərbaycan təsviri sənətinin çağdaş sənaye mənzərəsini müəyyənləşdirən rəssamlar kifayət qədər olsalar da, onların arasında dəst-xətti, dünyaya baxışı və mövzu dairəsi həmişə təravətli və cəlbedici, müasir və düşündürücü qalan sənətkarlar çox deyil.

“Sərt üslub”un banilərindən biri olan Tahir Salahov hələ tələbəlik illərindən özünü istedadlı, böyük ümidlər verən rəssam kimi tanıdıb. V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitunun tələbəsi olarkən “Ləpələr”, “Estakada” (1955) tablolarını yaradır. Gənc rəssamın boz çalarlarda yerinə yetirilən “Növbədən qayıdarkən” (1957) adlı diplom işi öz ekspressivliyi və dinamikası ilə valeh edir.

O, monumental obrazlarda müasirlərin hiss və düşüncələrini, əməyi və ümidlərini təmkinli boyalar vasitəsilə böyük ustalıqla təqdim edə bilmişdir. Neft buruqlarının qrafik dəqiq siluetli narahat Xəzər, günəş və küləklə qurudulmuş Abşeron qumları, cəsarətli fəhlələr- bütün bunlar o dövrdə hələ çox gənc olan rəssamın dəst-xəttinin, təmkinli və bir qədər sərt manerasının formalaşmasında böyük rol oynamışdır.

1950-ci illərin II yarısından başlayaraq Tahir Salahovu digər müasirləri kimi Neft daşları, Xəzər neftçilərinin əmək şəraiti, həyatı və estakadalar üzərində qurulmuş adadakı məişəti maraqlandırırdı. Qısa müddət ərzində yaradılan “Neft daşlarında” (1955), “Neft daşları” (1956), ”Növbədən qayıdarkən” (1957), “Səhər eşolonu” (1958), “Çənlər” (1959), “Çənlər parkı” (1959), “Təmirçilər” (1960) əsərlərindəki yeni üslubun təzahürü novatorluq baxımından rəssama təkcə Azərbaycanda deyil, keçmiş SSRİ məkanının təsvirsənət aləmində şöhrət qazandırdı.

Özünün ən uğurlu tablolarını bədii ümumiləşdirmə yolu ilə mənalandıran rəssamobrazlı təfəkkürə əsaslanır. Bu baxımdan rəssamın “Neft Daşlarında” əsərini qeyd edəbilərik. Əsər istər rəng həlli, istərsə də kompozisiya xüsusiyyətlərinə görə çox maraqlıdır. Tahir Salahov ustalığı ondan ibarətdir ki, müəllif qürub çağı Xəzəri və səmanı, gəmiləri və insan siluetlərini təsvir etdiyi, əsasən, rənglər tünd və boğuq olsa da bu əsərlər tamaşaçıda bədbinlik ruhu oyatmır.

**Ədəbiyyat:**
1. Leyla Böyükağa qızı Mirzəzadə. Azərbaycan xalq rəssamı Böyükağa Mirzəzadəninyaradıcılığı. Bakı: 2011
2. Saleh Tahirov. Yollar mənzərələr. Bakı: 2009
3. Fazil Rəhmanzadə. Böyük yaşantının naxışları. (Xalq rəssamı Tahir Salahovun həyatına bir baxış) Bakı: 2008

**Фатма СулеймановаТема Каспия в живописи Азербайджана**

**Резюме**

На протяжении развития изобразительного искусства Азербайджана Каспий был источником вдохновенья для многих художников. В числе произведений в области и живописи, и графики были соэданы много проиэведений, посвященых этой теме. В произведений разных художников Каспий был изображён в различныхнастроениях.

В числе художников создающих образы Каспийского моря, можно назвать С.Бахлулзаде, Т.Салахов, Б.Мирзазаде, Надира Гасымова, М.Рахманзаде и многих других художников, обогативших этот ряд. В целом, в живописи Азербайджана редко можно найти художника, который не посвятил Каспию хотя бы одно свое произведение. Число этих картин не вместимы в десятки статей.

**Ключевые слова:** Каспийская, картины, художник, цвет, море, масло.

**Fatma SuleymanovaTheme of the Caspian in the painting of Azerbaijan**

**Summary**

Throughout the development of fine art in Azerbaijan, the Caspian has been a source of inspiration for many artists. Among the works in the field and painting, and graphics were edited many works on this topic. In the works of various artists, the Caspian was depicted in various moods.

Among the artists who create the images of the Caspian Sea are S. Bakhlulzade, T. Salakhov, B. Mirzazade, Nadir Gasimov, M. Rahmanzade and many other artists who have enriched this series. In general, it is rare to find an artist in painting in Azerbaijan who has not dedicated at least one of his works to the Caspian. The number of these paintings can not accommodate dozens of articles.

**Keywords**: Caspian, paintings, artist, colour, sea, oil.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 15.10.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 22.10.2018Məqalənin çapa qəbul olunma tarixi: 25.10.2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: professor Arif Əzizov**
**ADMİU-nun Elmi Şurasının 22 dekabr 2018-ci il, 04 saylı qərarı ilə çap olunur**